## MƏTBUAT ÜÇÜN AÇIQLAMA

## ATİB İdarə Heyətinin Sədri Ahmet Erentok beynəlxalq konqresdə çıxış edəcək

**No: 09/29/108**
**27.05.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) İdarə Heyətinin sədri və Qara Dəniz və Xəzər Dənizi Sahibkarlar Konfederasiyaları Birliyinin (UBCCE) birinci vitse-prezidenti Ahmet Erentok 27-29 may 2009-cu ildə Türkiyənin İstanbul şəhərində keçiriləcək "Asiyada Regional Qurumlar, Təşkilatlanma və Əməkdaşlıq" adlanan 4-cü Beynəlxalq Türkiyə-Asiya Konqresinə dəvət olunub.

Asiya geosiyasəti və təşkilatlanma, regional əməkdaşlıq qurumları, regional iqtisadi birliklər, diplomatik nümayəndəliklər və qurum təmsilçiləri ilə bağlı müzakirələrin planlaşdırıldığı beynəlxalq tədbir Türkiyə Asiya Strateji Araşdırmalar Mərkəzinin (TASAM) təşkilatçılığı ilə həyata keçirilir.

"Regional Ixtisaslaşma Qurumları və Inteqrasiya" adlı sessiyada çıxış edəcək Ahmet Erentok UBCCE və təşkilatın fəaliyyət sahəsi haqqında məlumat verəcəkdir. A.Erentok eyni zamanda, 27 may 2009-cu ildə TRT kanalı vasitəsi ilə canlı yayımlanacaq proqramda iştirak edəcəkdir.

Qeyd edək ki, konqresin əsas məqsədi, xüsusi ilə yaxın zamanda Asiya qitəsində sosial-iqtisadi dirçəlişə, sülhə nail olunması, təhlükəsizlik və rifahın təmin edilməsində mühüm rolu olan, bundan əlavə, mədəni sahədə əlaqələrin inkişafına töhvə verən regional təşkilatların və ixtisaslaşma qurumlarının fəaliyyətinin araşdırılması, yeni əməkdaşlıq sahələrinin müəyyənləşdililməsi və sürətlə inkişaf edən Türkiyə-Asiya əlaqələrinin gözdən keçirilməsidir.

Regionda əməkdaşlığın inkişafına əhəmiyyətli töhfə verəcək tədbirdə Türkiyə Xarici İşlər Naziri Ahmet Davudoğlunun, Dövlət Naziri Faruk Çelikin, İran İslam Respublikası Xarici İşlər Nazirinin müavini Ali Ahaninin, İslam Konfransı Təşkilatının baş katibi Ekmeleddin İhsanoğlunun, Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Bolat Nurqəliyevin, Bəhreyn, Qatar, Pakistan, Hindistan, Monqolustan, Filippin, Vyetnam, Yəmən, Rusiya Federasiyası və İraqın Türkiyə Cümhuriyyətindəki səfirlərinin iştirakı gözlənilir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**